## **Vergi və sosial sığorta yığımları artır**

Son illər ölkəmizdə sahibkarlıq mühitinin yaxşılaşması, sahibkarlıq fəaliyyətinə yeni başlayan subyektlərin qeydiyyatının sadələşdirilməsi və digər addımlar yeni müəssisələrin yaranmasına əlverişli zəmin yaradıb. Fiziki və hüquqi şəxslər tərəfindən yeni müəssisələrin yaradılması ölkəmizdə vergitutma bazasının genişləndirilməsi ilə yanaşı, sosial sığorta haqlarının yığımının artmasına səbəb olur. Bunu vergi və sosial sığorta sahələrində yığımların dinamikasında görmək olar.

*Sosial sığorta sahəsində profisit yaranıb*

Bu ilin birinci rübündə Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə vergi daxilolmalarının həcmi, eləcə də Dövlət Sosial Müdafiə Fondu tərəfindən yığılmış məcburi sosial sığorta haqlarının məbləği əhəmiyyətli dərəcədə artıb. Vergilər Nazirliyi tərəfindən 2012-ci ilin yanvar-mart aylarında dövlət büdcəsinə vergi daxilolmaları 1.390,406 mln. manat təşkil edib. Qeyri neft-qaz sektoru üzrə büdcəyə 791,7 mln. manat vəsait daxil olub ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 16,4% çoxdur. Dövlət Sosial Müdafiə Fondu tərəfindən yığılmış məcburi sosial sığorta haqlarının məbləği isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 169 milyon manat (32,5%) artıb. Fondun gəlirləri yanvar-mart aylarında 689,6 manat təşkil edib. Fondun xərcləri isə hesabat dövründə 606,4 milyon manat təşkil edib. Beləliklə, son illər ərzində ilk dəfə olaraq Sosial Müdafiə Fondunun gəlirləri xərclərini təxminən 80 milyon manat üstələməklə böyük həcmdə profisit yaranıb.

Prezident İlham Əliyevin 31 may 2005-ci il tarixli «Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında» fərmanında həm vergi, həm də sosial sığorta sistemində ödənişlərin həyata keçirilməsinə nəzarətin gücləndirilməsi ilə əlaqədar mühüm müddəalar öz əksini tapıb. Burada əsas istiqamətlərdən biri fiziki şəxslərin əmək müqaviləsi olmadan işə götürülməsinə nəzarətlə bağlıdır. Ötən illər ərzində bu istiqamətdə həyata keçirilən səmərəli tədbirlərin nəticələri onu göstərir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin dövlət qeydiyyatından yayınması halları, demək olar ki, aradan qalxıb. Eyni zamanda, respublikamızda formalaşmış əlverişli biznes və vergi mühiti onları bu cür meyillərdən uzaqlaşdırmağa sövq edir.

*Həm vergilərin, həm də sosial sığorta haqlarının ödənilməsində könüllü əməletmə səviyyəsi yüksəlir*

Qeyd etdiyimiz kimi, vergi daxilolmalarının və sosial sığorta ödənişlərinin həcminin artmasında müəssisələrin istehsal və xidmət fəaliyyətinin genişlənməsi ilə yanaşı, yeni sahibkarlıq subyektlərinin yaradılması mühüm rola malikdir. Məsələn, cari ilin birinci rübündə ölkədə 18994 yeni vergi ödəyicisi qeydiyyatdan keçib ki, bu da vergitutma bazasının genişləndirilməsində mühüm rol oynayan faktor sayıla bilər. Yeni qeydiyyata alınan vergi ödəyicisi həm də sosial sığorta ödənişini həyata keçirir ki, nəticədə sosial müdafiə sistemində əlavə mənbə formalaşmış olur. Yanvar-fevral aylarında sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə sosial sığorta daxilolmalarının həcminin 12,7% artması fikrimizi təsdiqləmiş olur.

Statistik məlumatlardan vergi sistemində və sosial müdafiə sahəsində qeyri-dövlət sektorunun xüsusi çəkisinin artmasını görmək olar. Son illər dövlət büdcəsinə ödənilən vergilərin çəkisində qeyri-dövlət sektorunun xüsusi çəkisi daha çox artıb. Bununla yanaşı, məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların strukturunda da özəl sektorun payı əhəmiyyətli dərəcədə yüksəlməyə başlayıb. Bu ilin ilk rübündə məcburi dövlət sosial sığorta haqlarının 59,1%-i qeyri-büdcə sektorunun payına düşür və həmin sektor üzrə toplanan sığorta haqlarının məbləği 12,2% artıb. Bu faktor özəl sektorun iqtisadiyyatda çəkisinin daha da artmasının göstərici kimi də səciyyələndirilə bilər.

Nəzərə alsaq ki, sosial sığorta haqları da bir ödəmə növüdür, onda bu sistemdə baş verən müsbət dəyişiklikləri ümumilikdə respublikamızda həyata keçirilən radikal islahatların, ödəyicilərin maarifləndirilməsi istiqamətində davamlı tədbirlərin, şəffaflığın, elektron xidmətlərin məntiqi nəticəsi kimi qiymətləndirmək olar.

Artıq fiziki və hüquqi şəxslər tərəfindən həm vergilərin, həm də sosial sığorta haqlarının ödənilməsində sahibkarlıq subyektlərinin sayının artması ilə yanaşı, bu sahələrdə intizamlılıq, könüllülük daha zox nəzərə çarpır.

*Eyni məqsədə xidmət edən siyasət*

Mahiyyət etibarilə həm vergilərin, həm də sosial sığorta haqlarının yığımının artması eyni məqsədə xidmər edir: Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinin inkişafının daha da sürətlənməsinə stimul vermək, sosial proqramların miqyasının genişlənməsinə nail olmaq. Sosial sığorta yığımlarının həcminin əhəmiyyətli dərəcədə illik artımı yaxın illərdə dövlət büdcəsindən bu sahəyə transfertlərin həcminin azalmasına əlverişli zəmin yaradır. Yaxın beşillikdə büdcə transfertlərinin minumuma endirilməsi nəzərdə tutulur. Onu da nəzərə almaq lazımdır ki, Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə ödənilən vergilərin böyük bir hisəssi məhz vətəndaşların sosial rifahının daha da yaxşılaşmasına, pensiya və müavinətlərin ödənilməsinə, müxtəlif sosialyönümlü layihələrin maliyyələşdirilməsinə yönəldilir. Mövcud tendensiya göstərir ki, bir neçə ildən sonra sosial sığorta yığımlarının həcminin artması və büdcədən transfertlərin həcminin azalması fonunda vergi daxilolmalarının digər prioritet iqtisadi inkişaf layihələrinə yönəldilməsi reallaşacaq.

Məlum olduğu kimi, Prezident İlham Əliyev respublikamızın «Strateji İnkişaf Planı»nın hazırlanması ilə bağlı müvafiq dövlət orqanlarına təkliflər hazırlamağı tapşırıb. Bu strateji sənədin əsas hədəfləri qeyri-neft sektorunun inkişafına əsaslanan, tamamilə liberal iqtisadiyyatın yaradılmasından ibarət olacaq. Məhz bu mənada, sosial sığorta və vergi sistemində yeni inkişaf meyarlarının tətbiq olunması, ödənişlərin həcminin daha da yüksəldilməsi başlıca vəzifələrdən hesab olunur.

**Elbrus CƏFƏRLİ**